# MƏSULİYYƏTLİ TƏCHİZAT

## "HOLCİM"in TƏCHİZATÇILAR üçün ETİK DAVRANIŞ KODEKSİ



# Mündəricat


03 Giriş →

04 Əsas Prinsiplər →

05 Əməkdaşlıq Şərtləri →

07 Tənzimləyici Tələblər →

08 Rüşvət və Korrupsiya →

09 Sanksiya və Embarqolar →

13 Dəyər Zəncirində İşçilər üçün Sağlamlıq və Əməyin Təhlükəsizliyi →

14 Dəyər Zəncirində İşçilər üçün İş Şəraiti və Rifah →

15 Ətraf Mühitə Təsirin İdarə Edilməsi →

16 İqlim Fəaliyyəti →

17 Təbiətin Qorunması →

19 Təhlükəsizlik və Dayanıqlılıq →

21 Birləşmək Azadlığı və Qisasçılığa Yol Verilməməsi →

22 Məcburi Əmək və Müasir Kölələk →

23 Uşaq Əməyi →

24 Ayrı-seçkilik, Təhqir və ya Təhqiramiz Davranış →

25 Məlumatların Məxfiliyi →

26 Şikayət mexanizmləri →

27 Terminlər lüğəti →





HOLCIM

# Giriş

## Holcim davamlı tikinti sahəsində aparıcı tərəfdaş olmağa sadiqdir.

Davamlı inkişaf — dəyər yaradılması, ətraf mühitin mühafizəsi sahəsində fəaliyyət, eləcə də insan və əmək hüquqlarına hörmət — biznes strategiyamızın ayrılmaz hissəsidir.

Davamlı inkişafa yanaşmamız Təchizatçılarımızla iş prinsipimizi də əhatə edir.

Holcim-də davamlı satınalmalar BMT-nin Qlobal Sazişinin On Prinsipi, İƏİT-in (OECD) Çoxmillətli Müəssisələr üçün Rəhbər Prinsipləri, BMT-nin Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsipləri, Beynəlxalq Əmək Təşkilatının (BƏT) Əmək Sahəsində Fundamental Prinsiplər və Hüquqlar haqqında Bəyannaməsi və Özəl Mühafizə Xidmətləri üçün Beynəlxalq Davranış Kodeksi Assosiasiyasının standart və prinsiplərinə əsaslanır.

Biz davamlı inkişafı satınalma strategiyamıza, gündəlik fəaliyyətimizə və Təchizatçılarla olan münasibətlərimizə inteqrasiya edirik.

Bütün Holcim qrup şirkətlərindən öz tədarük zəncirlərində İqlim Dəyişikliyi, Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühit (SƏTƏM), Mühafizə və Dayanıqlılıq, Sosial Məsuliyyət, İnsan Hüquqları, Biznes Etikası və Hüquqi Uyğunluq (Komplayens) ilə bağlı riskləri müəyyən etmək, qarşısını almaq və idarə etmək tələb olunur. Holcim-in müvafiq siyasətləri və direktivləri ilə Holcim-in veb-saytında, ESG resursları səhifəsində tanış olmaq olar.

Bütün Holcim Təchizatçıları bu sənəddə təsvir olunan standartlara riayət etməli və eyni prinsipləri öz tədarük zəncirlərində tətbiq etməlidirlər.







**ƏLAQƏLİ KEÇİDLƏR**

- Davamlı tədarük zənciri
- ESG siyasətləri, sənədlər və hesabatlar

# Əsas Prinsiplərimiz və Təchizatçılar qarşısında Öhdəliklərimiz

## COMPLIANCE

**Holcim qanunvericiliyə uyğun biznes fəaliyyətini dəstəkləyir. Bu, gördüyümüz hər bir iş üçün minimum tələbdir.**

Biz tətbiq olunan qanun və qaydaların, siyasət və direktivlərin hər hansısa formada pozulmasının qarşısını almağa sadiqik. Biz bu Kodeksdə götürdüyümüz öhdəliklərə tam riayət edirik.

Satınalma vəzifələrini yerinə yetirərkən, bütün Holcim əməkdaşlarından şirkətin bu Kodeksdə təsbit olunmuş öhdəliklərini və əsas prinsiplərini Təchizatçılarla bölüşmələri gözlənilir.

## FAIRNESS

**Holcim müştərilərimizin və təchizatçılarımızın mənfəəti üçün açıq bazarların və ədalətli rəqabətin tərəfdarıdır.**

Biz biznes uğrunda rəqabət apardıqda və bazarda fəaliyyət göstərdikdə şəffaflıq və ədalətlilik prinsiplərinə uyğun hərəkət etməyə sadiqik.

Holcim hər bir satınalma kateqoriyasını idarə etmək və təchizatçılarla münasibətləri tənzimləmək üçün xüsusi metodologiyalar müəyyən etmişdir; bu metodologiyalar mövcud Kodeksə uyğun olaraq ədalətli, rəqabətli və şəffaf danışıqlar prosesini təmin edir.

## CARE

**Məqsədimiz insanlar və planet üçün tərəqqi inşa etməkdir. İnşaat mühitinin əsas tərkib hissəsi olaraq, məhsullarımız təhlükəsiz və davamlı gələcəyi təmin etmək üçün bütün dəyər zəncirinə müsbət təsir göstərməlidir.**

Biz cəmiyyətə və təbiətə verdiyimiz müsbət töhfələri artırmağa sadiqik.

Bu öhdəliklər hər bir satınalma qərarında, habelə müqavilə şərtlərində öz əksini tapır.

## TRUST

**Etibar illər boyu nümayiş etdirilən dürüst və sabit fəaliyyət sayəsində qazanılır, lakin bir anda itirilə bilər.**

Biz bütün tərəfdaşlarımızla etimada əsaslanan münasibətlər qurmağa, habelə Holcim-in aktivlərini, maraqlarını və işgüzar nüfuzunu qorumağa sadiqik.

Bu öhdəliklər həmçinin təchizatçılarla iş prinsiplərimizə də şamil edilir.

## RESPECT

**Holcim-in və qazandığımız uğurların mərkəzində insanlar dayanır – əməkdaşlarımız, müştərilərimiz, biznes tərəfdaşlarımız və məhsul və həllərimizlə həyatlarını yaxşılaşdırdığımız dünya üzrə milyonlarla insan.**

Biz öz fəaliyyətimizdə, işgüzar münasibətlərimizdə və çalışdığımız icmalarda insan və əmək hüquqlarına hörmət etməyə və bu hüquqları təşviq etməyə sadiqik. İnsan hüquqlarına hörmət bizim iş prinsiplərimizin təməlidir.

Bu öhdəliklər həmçinin təchizatçılarımıza və dəyər zəncirindəki bütün işçilərə şamil olunur.

HOLCIM

# Əməkdaşlıq Şərtləri

Bu Etik Davranış Kodeksi bütün Holcim təchizatçılarına şamil edilir və həm mövcud, həm də potensial tərəfdaşlarımıza çatdırılır.

Təqdim olunan mal və xidmətlərin Ətraf mühit, Sosial məsuliyyət, Korporativ idarəetmə (ESG), habelə Sağlamlıq və Əməyin Təhlükəsizliyi (H&S) sahələrinə göstərə biləcəyi potensial təsirlər nəzərə alınmaqla, prioritetləşdirilmiş bütün təchizatçılarımızdan təchizatçıların kvalifikasiyası (təsnifatlandırma) prosesində iştirak etmək tələb olunur.
Bu proses vasitəsilə təchizatçı həm öz fəaliyyətində, həm də öz tədarük zəncirində bu sənəddə qeyd olunan standartlara uyğunluğunu nümayiş etdirməlidir.

## TƏCHİZATÇILARIN KVALİFİKASİYASI PROSESİ

- Bu proses, Holcim standartlarına uyğun olaraq və yerli satınalma funksiyası tərəfindən müəyyən edilmiş qaydada; üçüncü tərəfin audit yoxlaması (due diligence), özünüqiymətləndirmə, faktların araşdırılması və ya auditlər formasında həyata keçirilən müntəzəm risk və effektivlik (performans) qiymətləndirmələrindən ibarətdir.
- Holcim, təchizatçılara bizim gözləntilərimizə necə cavab vermələri və qiymətləndirmənin hansı meyarlar üzrə aparılacağı barədə müvafiq təlimatlar təqdim edir.
- Təchizatçı Holcim-in tələblərinə cavab vermədikdə, problemin ciddiliyindən asılı olaraq müəyyən edilmiş müddət ərzində düzəliş tədbirləri planı hazırlanmalı və Holcim bu prosesin gedişatına nəzarət etməlidir.
- Holcim təchizatçıların potensialının artırılması və performansının yaxşılaşdırılması istiqamətində onlara dəstək göstərə bilər.
- Münasibətlərin dayandırılması: "Sıfır tolerantlıq" (zero tolerance) tələblərini pozan və ya bu Kodeksin müddəalarını mütəmadi və qəsdən pozan, habelə təkmilləşdirmə planlarını icra etməkdən imtina edən təchizatçılarla işgüzar münasibətlərə dərhal xitam verilə bilər. Tender mərhələsində Holcim, yerli, milli və ya beynəlxalq qanunvericiliyin tələblərinə əməl etməyən, yaxud bu sənəddə göstərilən gözləntiləri qarşılamayan təchizatçıları prosesdən kənarlaşdırmaq (diskvalifikasiya etmək) hüququnu özündə saxlayır.



## TƏCHİZATÇILARDAN GÖZLƏNTİLƏRİMİZ

# UYĞUNLUQ

**Holcim qanunvericiliyin tələblərinə uyğun biznes fəaliyyətlərini dəstəkləyir – bu, icra etdiyimiz hər bir iş üçün minimum tələbdir.**

Biz tətbiq olunan qanun və qaydaların, korporativ siyasət və direktivlərin hər hansı formada pozulmasının qarşısını almaq öhdəliyini daşıyırıq. Biz bu Kodeksdə təsbit olunmuş öhdəliklərimizə tam riayət edirik.

### BÖLMƏLƏR

07 Tənzimləyici Tələblər →

08 Rüşvətxorluq və Korrupsiya →

09 Sanksiyalar və Embarqolar →

Holcim yüksək sosial, insan hüquqları, ətraf mühit, sağlamlıq, əməyin təhlükəsizliyi və mühafizə standartlarına cavab vermək öhdəliyini daşıyır və biz Təchizatçılarımızdan da eyni yanaşmanı gözləyirik.

# Tənzimləyici Tələblər

Holcim qanunvericiliyin tələblərinə uyğun biznes fəaliyyətlərini dəstəkləyir – bu, bizimlə əməkdaşlıq üçün minimum tələbdir. Biz tətbiq olunan qanun və qaydaların hər hansı formada pozulmasının qarşısını almaq öhdəliyini daşıyırıq.

Tənzimləyici tələblər, müəssisənin və ya fərdin öz sənaye sahəsində və ya sektorunda xüsusi standartlara uyğunluğunu təmin etmək üçün dövlət agentlikləri və ya tənzimləyici orqanlar tərəfindən müəyyən edilmiş hüquqi cəhətdən məcburi qaydalar və ya rəhbər prinsiplərdir.

Tənzimləyici tələblər sadəcə tövsiyə xarakterli deyil; onlar cərimələrdən və ya hüquqi nəticələrdən qaçmaq üçün riayət edilməsi zəruri olan qanun və qaydalardır.

## TƏCHİZATÇILARDAN GÖZLƏNTİLƏRİMİZ

- Təchizatçılar öz fəaliyyətlərini həyata keçirmək üçün yerli və milli qanunvericiliyin tələblərinə və qaydalarına riayət etməlidirlər. Bundan əlavə, biz təchizatçılardan bütün səviyyələrdə (yerli, milli və beynəlxalq) ekoloji, sosial və digər tənzimləyici tələblərə sadiq qalmalarını gözləyirik.
- Xüsusilə Ətraf Mühit sahəsi üzrə: təchizatçılar bütün fəaliyyətləri üçün tələb olunan ekoloji icazələrə, lisenziyalara, torpaqdan istifadə hüquqlarına malik olmalı və ekoloji problemlərə qarşı ehtiyatlılıq prinsipini (precautionary approach) dəstəkləməlidirlər.
- Xüsusilə Sağlamlıq və Əməyin Təhlükəsizliyi (SƏT) sahəsi üzrə: təchizatçılar əməyin mühafizəsi və təhlükəsizliyi ilə bağlı yerli və milli qanunvericiliyə riayət etməli, habelə yerli və milli hakimiyyət orqanları tərəfindən verilən zəruri icazə, lisenziya və səlahiyyətlərə malik olmalıdırlar.







# Rüşvət və Korrupsiya

Rüşvət və korrupsiya cəmiyyətlərə zərər vurur və bərabərsizlik yaradır. Bu cür məsələlər fəaliyyət göstərdiyimiz bütün ölkələrdə cinayət tərkibli əməllər hesab olunur, habelə dövlətə və biznesə olan etimadı sarsıdır. Qanunun aliliyinə riayət etmək bizim qlobal fəaliyyət mexanizmimizin təməl prinsipidir.

Rüşvət, hər hansı qeyri-müvafiq təsir göstərmək məqsədilə nəyinsə təklif edilməsi və ya vəd olunmasıdır. Korrupsiya isə şəxsin ədalətsiz üstünlük əldə etmək üçün öz vəzifə səlahiyyətlərindən sui-istifadə etməsi hallarıdır. Rüşvət və korrupsiya mənimsəmə, fırıldaqçılıq və hədə-qorxu ilə tələb etmə daxil olmaqla bir çox formalarda təzahür edə bilər.

Biznes subyektlərinin rüşvət və korrupsiyada iştirakı, adətən rüşvəti gizlətmək və ya qanunsuz istifadə üçün tərtib olunan uydurma müqavilələr və ya mühasibat fırıldaqçılığı ilə xarakterizə olunur.

## TƏCHİZATÇILARDAN GÖZLƏNTİLƏRİMİZ

- Təchizatçılar korrupsiyaya qarşı mübarizə sahəsində bütün tətbiq olunan qanun və qaydalara riayət etməli və bu məqsədlə rüşvətin, korrupsiyanın, hədə-qorxu ilə tələb etmənin və mənimsəmənin istənilən formasına qarşı "sıfır tolerantlıq" siyasəti yürütməlidirlər.
- Xüsusilə, təchizatçılar və onların genişlənmiş tədarük zənciri müştərilər, təchizatçılar, dövlət rəsmiləri və hər hansı digər maraqlı tərəflərlə işgüzar münasibətlər zamanı rüşvət verməməli və ya hər hansı digər stimullaşdırıcı vasitələrdən (o cümlədən, gizli komissiya haqları, işi sürətləndirmək üçün ödənişlər, həddindən artıq dəyərli hədiyyələr və qonaqpərvərlik, qrantlar və ya ianələr) istifadə etməməlidirlər.
- Təchizatçılardan bütün işgüzar əməliyyatları şəffaf şəkildə həyata keçirmələri gözlənilir və bu əməliyyatlar onların mühasibat kitablarında və qeydlərində dəqiq əks olunmalıdır.
- Rüşvətə qarşı mübarizə qanunvericiliyinin və qaydalarının pozulması "Sıfır Tolerantlıq" prinsiplərinin pozulması hesab olunur.







# Sanksiyalar və Embarqolar

Holcim kimi qlobal şirkətlər ticarət sanksiyaları, embarqolar və ixrac nəzarəti mexanizmləri səbəbindən ciddi çağırışlarla üzləşirlər. Bu qaydaların pozulması ağır nəticələrə yol açа bilər.

Antiterror qanunvericiliyinə, habelə iqtisadi və ticarət sanksiyalarına riayət olunması bizdən sanksiya tətbiq edilmiş qruplar, şirkətlər və ya fərdlərlə hər hansı formada işgüzar münasibətlərdən çəkinməyi tələb edir.

Dövlət siyasətləri haqqında məlumatlı olmaq, əməliyyata başlamazdan əvvəl bütün zəruri sənədləri əldə etmək və bütün komplayens prosedurlarının yerinə yetirilməsini təmin etmək bizim fərdi və kollektiv məsuliyyətimizdir.

## TƏCHİZATÇILARDAN GÖZLƏNTİLƏRİMİZ

- Təchizatçılar antiterror qanunlarına, bütün tətbiq olunan ticarət və iqtisadi sanksiyalara, embarqo qaydalarına və tənzimləmələrinə, o cümlədən müvafiq ixrac nəzarəti tələblərinə riayət etməlidirlər.
- Təchizatçılar Holcim tərəfindən istifadə edilməsi və ya ona satılması nəzərdə tutulan məhsulları, bu məhsulların tərkib hissələrini və ya xidmətləri sanksiya yaxud embarqo subyekti olan tərəfdən və ya sanksiya tətbiq edilmiş tərəfdən tədarük etməməli və satın almamalıdırlar.
- Təchizatçılar hər hansı bir tərəfin sanksiya və ya embarqo subyekti olmadığını müəyyən etmək üçün bütün tələb olunan yoxlamaları və müvafiq kompleks yoxlama (due diligence) tədbirlərini həyata keçirməlidirlər.
- Antiterror qanunlarının, habelə iqtisadi və ticarət sanksiyalarının pozulması Sıfır Tolerantlıq Pozuntusu hesab olunur.









### TƏCHİZATÇILARDAN GÖZLƏNTİLƏRİMİZ

# ƏDALƏTLİLİK

**Holcim müştərilərimizin və təchizatçılarımızın mənfəəti naminə açıq bazarları və ədalətli rəqabəti dəstəkləyir.**

Biz bazarda fəaliyyət göstərərkən və yeni biznes imkanları uğrunda rəqabət apardıqda şəffaflıq və ədalətlilik prinsipləri ilə hərəkət etməyə sadiqik.

## BÖLMƏLƏR

11 Rəqabət Qanunvericiliyi →

Holcim yüksək sosial, insan hüquqları, ətraf mühit, sağlamlıq, əməyin təhlükəsizliyi və mühafizə standartlarına cavab vermək öhdəliyini daşıyır və biz Təchizatçılarımızdan da eyni yanaşmanı gözləyirik.

# Rəqabət Qanunvericiliyi

Ədalətli rəqabət biznes subyektlərini yüksək keyfiyyətli mal və xidmətləri mümkün olan ən yaxşı qiymətə təklif etməyə təşviq edir. Rəqabət əleyhinə olan təcrübələr bazara giriş maneələri və əsassız qiymət artımları yaradaraq rəqabəti məhdudlaşdıra bilər ki, bu da səmərəliliyin azalmasına və innovasiyaların boğulmasına gətirib çıxarır. Bu, iqtisadi artıma və yerli icmaların inkişafına mənfi təsir göstərərək, son nəticədə son istehlakçıların ziyanına işləyir.

Ədalətli rəqabət həlledici əhəmiyyət kəsb edir. Rəqabət qanunvericiliyinin pozulması Holcim-i dövlət araşdırmaları və cərimələrlə üz-üzə qoyur. Bəzən ədalətli rəqabət ilə rəqabət əleyhinə təcrübələr arasında çox incə bir xətt olur. Şübhəli hallarda hüquq şöbəsindən və Qrupun rəqabət hüququ üzrə ekspertlərindən məsləhət almaq məsuliyyətin bir hissəsidir.

## TƏCHİZATÇILARDAN GÖZLƏNTİLƏRİMİZ

- Təchizatçılar Holcim ilə bağladıqları müqavilənin icrası zamanı bütün tətbiq olunan rəqabət qanunlarına riayət etməli və bu məqsədlə həmin qaydaların hər hansı formada pozulmasına qarşı sıfır tolerantlıq siyasəti yürütməlidirlər.
- Təchizatçılar, xüsusən də Holcim, onun digər təchizatçıları və maraqlı tərəfləri ilə bağladıqları müqavilə öhdəliklərinə rəqabət qanunlarını pozan hər hansı şərt daxil etməyə cəhd göstərməməlidirlər.
- Təchizatçılardan həmçinin Holcim ilə olan tədarük münasibətlərinə dair kommersiya baxımından həssas məlumatların üçüncü tərəflərə və ya əksinə açıqlanmasının qarşısını almaq üçün bütün zəruri ehtiyat tədbirlərini görmələri gözlənilir.
- Rəqabət qanunvericiliyinin pozulması Sıfır Tolerantlıq Pozuntusu hesab olunur.





# QAYĞI

**Bizim məqsədimiz insanlar və planet üçün tərəqqi inşa etməkdir. Tikinti mühitinin əsas tərkib hissəsi olaraq, məhsullarımız təhlükəsiz və dayanıqlı gələcəyi təmin etmək üçün bütün dəyər zəncirinə müsbət şəkildə təsir göstərməlidir.**

**Biz cəmiyyətə və təbiətə verdiyimiz müsbət töhfələri artırmağa sadiqik.**

**BÖLMƏLƏR**

13 Dəyər zəncirində çalışan işçilərin sağlamlığı və təhlükəsizliyi →

14 Dəyər zəncirində çalışan işçilər üçün iş şəraiti və rifah →

15 Ətraf mühitə təsirlərin idarə edilməsi →

16 İqlim fəaliyyəti →

17 Təbiətin mühafizəsi →

Holcim yüksək sosial, insan hüquqları, ətraf mühit, sağlamlıq, əməyin təhlükəsizliyi və mühafizə standartlarına cavab vermək öhdəliyini daşıyır və biz Təchizatçılarımızdan da eyni yanaşmanı gözləyirik.

# Dəyər zəncirində işçilərin Sağlamlığı və Əməyin Təhlükəsizliyi

Holcim-də bizim insanlarımız, müştərilərimiz, təchizatçılarımız və icma üzvlərimiz ən vacib aktivlərimizdir. Sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühit (HSE) Holcim üçün ən yüksək prioritetlərdir.

Gördüyümüz heç bir iş özümüzə, başqalarına və ya ətraf mühitimizə zərər vermək riskinə dəyməz. Bu, bütün əməkdaşlarımızın həm özləri, həm də bir-birləri qarşısında daşıdıqları məsuliyyətdir.

Sağlamlıq və əməyin təhlükəsizliyinin bütün fəaliyyətlərimizə inteqrasiya edilməsi şirkət olaraq uğurumuz üçün kritik əhəmiyyət kəsb edir.

Üçüncü tərəflərlə birgə çalışdığımız hər bir halda, bizim sağlamlıq və təhlükəsizlik standartlarımız istənilən əməkdaşlığın ayrılmaz tərkib hissəsi olacaqdır.

## TƏCHİZATÇILARDAN GÖZLƏNTİLƏRİMİZ

- Təchizatçılar öz işçiləri, podratçıları və digər maraqlı tərəfləri üçün təhlükəsiz və sağlam iş yeri təmin etməlidirlər.
- Təchizatçıların sənədləşdirilmiş sağlamlıq və əməyin təhlükəsizliyi siyasətləri və/və ya prosedurları, habelə müvafiq təhlükəsizlik infrastrukturu və avadanlıqları mövcud olmalıdır.
- Sağlamlıq və əməyin təhlükəsizliyi baxımından orta və ya yüksək riskli hesab edilən təchizatçılar (işlərin və məkanların təhlükəlilik dərəcəsinə əsasən) tədbirlər görməli və tanınmış Sağlamlıq və Əməyin Təhlükəsizliyi idarəetmə sisteminin tətbiqi istiqamətində davamlı təkmilləşməni sübut etməlidirlər. Holcim-in istehsalat sahələrində olduqda, Təchizatçılar Holcim-in tətbiq olunan siyasət, direktiv və standartlarına tam əməl etməlidirlər. Məhsullarımızı daşıdıqda isə təchizatçılar Holcim-in yol hərəkəti təhlükəsizliyi standartlarına riayət etməlidirlər.





# Dəyər zəncirində işçilər üçün İş Şəraiti və Sosial Rifah

Holcim-də biz əməkdaşlarımızın rifahını təmin edir, insan hüquqlarını qoruyur və təşviq edirik. Biz hər bir fərdin özünü hörmətli, dəyərli hiss etdiyi və öz potensialını tam reallaşdırmaq üçün səlahiyyətləndirildiyi bir mədəniyyəti inkişaf etdiririk.

İş şəraiti və rifah iş yeri ilə bağlı geniş amilləri əhatə edir. Bunlara aşağıdakılar daxildir:

→ **Fiziki mühit:** İşıqlandırma, temperatur, təmizlik, havalandırma, səs-küy səviyyəsi və zəruri alət və avadanlıqlara çıxış.

→ **İşin təşkili:** İşin strukturlaşdırılma qaydası, o cümlədən iş qrafiki, iş yükü, istirahət vaxtı və iş-həyat balansı.

→ **Psixoloji aspektlər:** İşçilərin özlərini dəyərli hiss etdikləri dəstəkləyici və inklüziv iş mühitinin yaradılması. Bura həmçinin stres səviyyəsi, iş məmnuniyyəti, inkişaf və artım imkanları daxildir.

→ **İş təminatı və iqtisadi rifah:** Bura ədalətli əməkhaqqı, müavinətlər və məşğulluğun ümumi sabitliyi kimi aspektlər daxildir.

## TƏCHİZATÇILARDAN GÖZLƏNTİLƏRİMİZ

- Təchizatçılar bütün işçilər və öz təchizatçıları üçün müqavilələrin təqdim edilməsi və kompensasiyaların ödənilməsi zamanı yerli və milli qanunları tətbiq etməklə, ədalətli və layiqli iş şəraiti, əmək standartları və iş yerində rifahı təmin etməlidirlər.
- Təchizatçılar öz işçi qüvvəsinin qayğısına qalmalı və hər bir fərdin, o cümlədən həssas azlıqların ləyaqətinə, şəxsi həyatının toxunulmazlığına və hüquqlarına hörmət etməlidirlər.
- İşçilərə ən azı yerli sənaye dərəcəsi və ya milli qanunvericiliklə müəyyən edilmiş minimum əməkhaqqından hansı daha yüksəkdirsə, o məbləğdə ödəniş edilməli və onlar milli standartlara uyğun sosial müdafiə sxemlərindən yararlanmalıdırlar. Fəaliyyət göstərilən ölkədə qanuni minimum əməkhaqqı mövcud olmadıqda, ədalətli və layiqli şərtlər təchizatçıların öz işçilərinə ölkədəki ümumi əməkhaqqı səviyyəsini, yaşayış minimumunu, sosial təminat müavinətlərini və nisbi həyat standartlarını nəzərə almaqla ödəniş etməsini nəzərdə tutur.
- Təchizatçılar iş vaxtına milli qanunlara və beynəlxalq səviyyədə tanınmış minimum standartlara — həftədə 48 normal iş saatı, hər yeddi gündən bir ən azı 24 saatlıq istirahət dövrü və həftədə maksimum 12 saatlıq könüllü əlavə iş vaxtına uyğun olaraq riayət etməlidirlər.

# Ətraf Mühitə Təsirlərin İdarə Edilməsi

Holcim-də biz bütün fəaliyyət sahələrimizdə ətraf mühitin rifahını təmin edirik. Holcim-in ətraf mühitin mühafizəsinə hörmət prinsipləri bütün bazarlarda təchizatçılarımızla iş mexanizmimizin ayrılmaz hissəsidir.

Ətraf mühitə təsirlərin idarə edilməsi — mənfi təsirlərin minimuma endirilməsinə və dayanıqlı inkişafın təşviqinə diqqət yetirməklə, insan fəaliyyətinin ekoloji nəticələrinin müəyyən edilməsi, qiymətləndirilməsi və nəzarətdə saxlanılmasına dair sistematik yanaşmadır. Bu proses ətraf mühitə potensial təsirlərin başa düşülməsini və həmin təsirlərin azaldılması, təbii sərvətlərin qorunması və ekosistemlərin mühafizəsi üçün strategiyaların tətbiqini nəzərdə tutur.

## TƏCHİZATÇILARDAN GÖZLƏNTİLƏRİMİZ

- Təchizatçılar iqlim və enerji, su, tullantılar, kimyəvi maddələr, havanın çirklənməsi və biomüxtəliflik daxil olmaqla (lakin bunlarla məhdudlaşmayaraq) ətraf mühitə təsirlərini sistematik şəkildə idarə etməli, habelə bu təsirlərin azaldılması üçün məqsəd və hədəflər müəyyən etməlidirlər.
- Ətraf mühitə yüksək təsir göstərən subyekt kimi müəyyən edilmiş təchizatçılar müvafiq tədbirlər görməli və tanınmış Ətraf Mühitin İdarə Edilməsi Sisteminin (EMS) tətbiqi istiqamətində davamlı təkmilləşməni sübut etməlidirlər.



# İqlim Fəaliyyəti

İnnovativ və dayanıqlı tikinti həlləri sahəsində qlobal lider kimi Holcim iqlim dəyişikliyi çağırışlarına qarşı fəal mübarizə aparır. İqlim fəaliyyəti bizim biznes strategiyamızın mərkəzində dayanır.

Holcim 2050-ci ilə qədər bütün dəyər zənciri boyunca istixana qazı emissiyalarını xalis sıfır (net-zero) səviyyəsinə çatdırmağı öhdəsinə götürüb.

Biz iqlim fəaliyyətlərini irəli aparmaq və kollektiv təsirimizi gücləndirmək missiyamıza uyğun gələn təchizatçılarla tərəfdaşlıq etməyi fəal şəkildə seçirik.

## OUR EXPECTATIONS OF SUPPLIERS

İqlimə orta və ya yüksək dərəcədə təsir göstərən subyekt kimi müəyyən edilmiş təchizatçılar aşağıdakı tədbirləri görməlidirlər:

- Öz $CO_2$ emissiyalarını ölçməli, bəyan etməli və bu göstəricilərin üçüncü tərəf tərəfindən təsdiqlənməsini təmin etməlidirlər.

- Öz əməliyyatlarını (Səviyyə 1 və 2 / Scope 1 and 2) və tədarük zəncirlərini (Səviyyə 3 / Scope 3) dekarbonizasiya etmək üçün ictimaiyyətə açıq azaldılma hədəfləri müəyyən etməlidirlər.

- Müəyyən edilmiş hədəflərə nail olmaq istiqamətində davamlı təkmilləşmənin sübutlarını təqdim etməlidirlər.







# Təbiətin Mühafizəsi

Bizim təbiət strategiyamız planetimizin və cəmiyyətin dözümlülüyünü artırmaq üçün şirin su ekosistemlərinin və biomüxtəlifliyin bərpası və qorunmasına xüsusi diqqət yetirir.

Su ehtiyatlarına verdiyimiz töhfələr şirin su istifadəsinin azaldılmasına, yüksək su keyfiyyəti standartlarına və şirin su ehtiyatlarının yenidən bərpasına yönəlmişdir. Biomüxtəlifliyə verdiyimiz töhfələr isə mərhələli və transformativ reabilitasiyaya, meşəsalma işlərinə və landşaft yanaşmasına fokuslanır.

Dövriyyəli iqtisadiyyat (Circularity) fəaliyyətimizin mərkəzində dayanır və bizim "xalis sıfır" (net-zero) hədəfimizə doğru hərəkətverici qüvvədir. Təkrar emal sahəsində lider olaraq, biz biznesimizin hər bir mərhələsində “azalt, təkrar emal et və bərpa et” prinsiplərini tətbiq edirik.

## TƏCHİZATÇILARDAN GÖZLƏNTİLƏRİMİZ

### Su

**Su ehtiyatlarına orta və ya yüksək dərəcədə təsir göstərən subyekt kimi müəyyən edilmiş təchizatçılar aşağıdakı tədbirləri görməlidirlər:**

- Şirin su çıxarılmasını və suyun çirklənməsi göstəricilərini ölçməli və bəyan etməlidirlər.
- Şirin su çıxarılmasının və suyun çirklənməsinin azaldılması üçün ictimaiyyətə açıq hədəflər müəyyən etməlidirlər.
- Həmin hədəflərə nail olmaq istiqamətində davamlı təkmilləşməni sübut etməlidirlər.

### Meşə Təsərrüfatı

**Meşələrə orta və ya yüksək dərəcədə təsir göstərən subyekt kimi müəyyən edilmiş təchizatçılar Məsuliyyətli Meşə Təsərrüfatı təcrübələrini tətbiq etməli və xarici sertifikatların (məsələn, FSC - Meşə İdarəetmə Şurası, PEFC - Meşə Sertifikatlaşdırılmasının Təsdiqi Proqramı) əldə edilməsi istiqamətində çalışmalıdırlar.**

### Mədən İşləri

Mədən fəaliyyəti vasitəsilə torpaq resurslarına orta və ya yüksək dərəcədə təsir göstərən subyekt kimi müəyyən edilmiş təchizatçılar biomüxtəlifliyin itirilməsinin və meşəsizləşmənin qarşısını almaq üçün karxanaların reabilitasiyasını nəzərdə tutan Məsuliyyətli Mədənçilik təcrübələrini tətbiq etməlidirlər.
Bundan əlavə, əgər onların tədarük zəncirində qalay, volfram, tantal və qızıl mövcuddursa, təchizatçılar:

- Tədarük zəncirinin "münaqişə zonalarından gələn faydalı qazıntılardan" (conflict minerals) azad olmasını təmin etmək üçün İƏİT (OECD) Kompleks Yoxlama Rəhbərliyinə əsaslanan due diligence sistemini tətbiq etməlidirlər.
- Şəffaflığı və hesabatlılığı təmin etmək üçün münaqişə zonalarından gələn faydalı qazıntılar üzrə uyğunluq səyləri barədə illik hesabat dərc etməlidirlər.
- Xüsusi tənzimləyici normalara uyğunluğu nümayiş etdirməlidirlər: İsveçrə Öhdəliklər Məcəlləsi, Aİ Münaqişə Zonalarından Gələn Faydalı Qazıntılar üzrə Reqlamenti, ABŞ Qiymətli Kağızlar və Birja Komissiyasının (SEC) tələbləri və digər müvafiq milli qaydalar.



## TƏCHİZATÇILARDAN GÖZLƏNTİLƏRİMİZ

# ETİBAR

**Etibar ardıcıl davranışlar vasitəsilə zamanla qurulur. Lakin o, bir anın içində yox ola bilər.**

Biz maraqlı tərəflərimizlə etimad qurmağa, eləcə də Holcim-in aktivlərini, maraqlarını və nüfuzunu qorumağa sadiqik.

**BÖLMƏLƏR**

19 Təhlükəsizlik və Dayanıqlılıq →

ⓘ Holcim yüksək sosial, insan hüquqları, ətraf mühit, sağlamlıq, əməyin təhlükəsizliyi və mühafizə standartlarına cavab vermək öhdəliyini daşıyır və biz Təchizatçılarımızdan da eyni Yanaşmanı gözləyirik.

# Təhlükəsizlik və Dayanıqlılıq

Dəyişkən və bəzən qeyri-müəyyən olan biznes mühitində insanlarımızın təhlükəsizliyi və biznesimizin dayanıqlılığı (çevikliyi) həlledici əhəmiyyət kəsb edir.

Holcim-də biz insanlarımızın təhlükəsizliyini bütün digər aktivlərdən və biznesin davamlılığından üstün tuturuq.

Qlobal əməliyyatlarımız dayanıqlı olmalıdır. Biz dəyişən şəraitləri qabaqcadan görməli və onlara uyğunlaşmalıyıq. Dayanıqlı bizneslər gözlənilməz çətinliklərin öhdəsindən gəlmək üçün daha yaxşı təchiz olunublar və onlardan daha güclü çıxmaq ehtimalları daha yüksəkdir. Dayanıqlılıq — davamlılıq və ya sağlamlıq və əməyin təhlükəsizliyi kimi tanış sahələrdən tutmuş, insanlarımızın həyat və təhlükəsizliyinə mənfi təsir göstərə biləcək qəsdən törədilən cinayət və bədniyyətli əməllərə qədər geniş spektri əhatə edir.

Biz tədarük zəncirimizin sabit, təhlükəsiz və gələcəyə hazır olmasını təmin etmək üçün zəruri addımlar atırıq.

## TƏCHİZATÇILARDAN GÖZLƏNTİLƏRİMİZ

### Təhlükəsizlik Xidməti Təminatçıları:

- Holcim-in "Dürüstlüklə Təhlükəsizlik Xidmətləri" (Security Services with Integrity) direktivində qeyd olunan təhlükəsizlik tələblərinə və Təhlükəsizlik və İnsan Hüquqları üzrə bütün tətbiq olunan milli qaydalara riayət etməlidirlər.
- Bütün heyətin Holcim-in direktivinə uyğun təlim keçdiyini, müvafiq beynəlxalq standartlara və milli hüquqi tələblərə uyğun fəaliyyət göstərdiyini sübut etməlidirlər.

### Dayanıqlılıq

- Kritik məhsul və xidmət təchizatçılarından dayanıqlılığa qarşı proaktiv və strukturlaşdırılmış yanaşma nümayiş etdirmələri, öz tədarük zəncirləri və biznes əməliyyatları boyunca əməliyyat dayanıqlılığı risklərini və asılılıqlarını anladıqlarını nümayiş etdirmələri tələb olunur.

**USEFUL LINKS**

- Birləşmiş Millətlər Təşkilatının Dayanıqlılıq Yetkinliyinin Qiymətləndirilməsi (ReMA)
- Beynəlxalq Davranış Məcəlləsi Assosiasiyası (ICoCA)
- Təhlükəsizlik və İnsan Hüquqları üzrə Könüllü Prinsiplər (VPSHR)

TƏCHİZATÇILARDAN GÖZLƏNTİLƏRİMİZ

# HÖRMƏT

**İnsanlar Holcim-in və bizim uğurumuzun mərkəzində dayanır – əməkdaşlarımız, müştərilərimiz, biznes tərəfdaşlarımız və məhsullarımız və həllərimizlə həyatlarını yaxşılaşdırdığımız dünyanın dörd bir yanındakı bir çox insan.**

Biz öz əməliyyatlarımızda, işgüzar münasibətlərimizdə və fəaliyyət göstərdiyimiz icmalarda insan və əmək hüquqlarına hörmət etməyə və onları təşviq etməyə sadiqik. İnsan hüquqlarına hörmət bizim iş prinsipimizin təməlini təşkil edir.

## BÖLMƏLƏR

21 Birləşmək azadlığı və qisas tədbirlərinin qadağan edilməsi →

22 Məcburi əmək və müasir köləlik →

23 Uşaq əməyi →

24 Ayrı-seçkilik, təqib və ya zorakılıq xarakterli davranış →

25 Məlumatların məxfiliyi →



Holcim yüksək sosial, insan hüquqları, ətraf mühit, sağlamlıq, əməyin təhlükəsizliyi və mühafizə standartlarına cavab vermək öhdəliyini daşıyır və biz Təchizatçılarımızdan da eyni yanaşmanı gözləyirik.

# Birləşmək Azadlığı və Qisasçılığa Yol Verilməməsi

İnsan hüquqları hamı üçün universaldır və onlara hörmət etmək bizim həm hüquqi, həm də etik öhdəliyimizdir. Bura yaşamaq və azadlıq hüququ, köləlik və işgəncədən azad olmaq, fikir və ifadə azadlığı, habelə əmək və təhsil hüququ daxildir.

Birləşmək azadlığı — işəgötürənlərin və işçilərin öz maraqlarını təşviq etmək və qorumaq məqsədilə sərbəst və könüllü şəkildə öz seçimlərinə uyğun təşkilatlar yaratmaq və onlara üzv olmaq hüququna, habelə qrupun öz üzvlərinin maraqlarını izləmək üçün kollektiv fəaliyyət göstərmək (kollektiv müqavilə bağlamaq) hüququna hörmət edilməsini nəzərdə tutur.

Qisasçılıq (Retaliation) — kiminsə etdiyi və ya dediyi bir şeyə görə (məsələn, şikayət etməsi və ya hüququnu tələb etməsi) ona zərər vermək və ya zərərli hərəkət etmək aktıdır (məsələn: diskriminasiya, təzyiq/mənəvi aşındırma, müqaviləyə xitam verilməsi).

## TƏCHİZATÇILARDAN GÖZLƏNTİLƏRİMİZ

- Təchizatçılar işçilərin birləşmək azadlığına və kollektiv müqavilə bağlamaq hüququna müdaxilə etməməlidirlər.
- İşçi nümayəndələri öz hüquqlarından istifadə etdiklərinə, şikayət bildirdiklərinə, həmkarlar ittifaqı fəaliyyətində iştirak etdiklərinə və ya şübhəli hüquqi pozuntular barədə məlumat verdiklərinə görə qisas xarakterli diskriminasiyaya, təzyiqə (harassment) və ya müqaviləyə xitam verilməsi hallarına məruz qalmamalıdırlar.
- Birləşmək azadlığı və kollektiv müqavilə bağlamaq hüququnun yerli qanunvericiliklə məhdudlaşdırıldığı hallarda, bu hüquqlar BƏT (Beynəlxalq Əmək Təşkilatı - ILO) tərəfindən təsvir edilən digər mexanizmlər (məsələn, işçi şuraları) vasitəsilə təmin edilməlidir.







# Məcburi Əmək və Müasir Köləlik

Holcim-də biz məcburi əməyin istənilən formasını qadağan edirik. İnsan hüquqları hamı üçün universaldır və onlara hörmət etmək bizim həm hüquqi, həm də etik öhdəliyimizdir.

Məcburi əmək (və ya qeyri-azad əmək) — insanların öz iradəsinə zidd olaraq, güc tətbiqi, fırıldaqçılıq və ya məcburetmə yolu ilə iş və ya xidmət göstərməyə məcbur edildiyi hər hansı iş münasibətidir.

Müasir köləlik — uşaqların, qadınların və ya kişilərin güc tətbiqi, fırıldaqçılıq və ya məcburetmə yolu ilə işə cəlb edilməsi, daşınması, gizlədilməsi və ya qəbul edilməsi kimi müəyyən edilir. Bura insan alveri, köləlik, qul vəziyyəti, məcburi əmək və borc asılılığı daxildir, lakin bunlarla məhdudlaşmır.

## TƏCHİZATÇILARDAN GÖZLƏNTİLƏRİMİZ

- Təchizatçılar cəza təhdidi altında könülsüz şəkildə təqdim olunan əməkdən istifadə etməməlidirlər. Bura məcburi əlavə iş vaxtı, insan alveri, köləlik və ya qul vəziyyəti, borc asılılığı, məcburi məhbus əməyi və hətta bunlarla məhdudlaşmayan digər məsələlər daxildir. Təchizatçılar miqrant işçilərin şəxsiyyətini təsdiq edən sənədləri (məsələn, pasportları) özlərində saxlamamalı və ya geri verməkdən imtina etməməlidirlər.
- Məcburi əmək və müasir köləlik qanunlarının pozulması Sıfır Tolerantlıq Pozuntusu hesab olunur.



# Uşaq Əməyi

Holcim-də biz uşaq əməyini qadağan edirik. İnsan və uşaq hüquqları hamı üçün universaldır; onlara hörmət etmək bizim həm hüquqi, həm də etik öhdəliyimizdir.

Uşaq əməyi termini çox vaxt uşaqları uşaqlıq illərindən, potensiallarından və ləyaqətlərindən məhrum edən, fiziki və əqli inkişafına zərər vuran iş kimi müəyyən edilir.

Bu, aşağıdakı xüsusiyyətlərə malik işləri əhatə edir:

Uşaqlar üçün əqli, fiziki, sosial və ya mənəvi cəhətdən təhlükəli və zərərli olan;

Məktəbə getmək imkanından məhrum etməklə onların təhsilinə mane olan;

Onları məktəbi vaxtından əvvəl tərk etməyə məcbur edən;

Məktəbə davamiyyəti həddindən artıq uzun və ağır işlə birləşdirməyi tələb edən işlər.

Uşaq əməyinin ən pis formaları — uşaqların kölə halına salınması, ailələrindən ayrılması, ciddi təhlükələrə və xəstəliklərə məruz qalması və ya çox gənc yaşlarında böyük şəhərlərin küçələrində təkbaşına buraxılmasıdır.

Təhlükəli uşaq əməyi — zəif təhlükəsizlik və sağlamlıq standartları nəticəsində uşağın ölümü, yaralanması və ya xəstələnməsi ilə nəticələnə biləcək təhlükəli və ya qeyri-sağlam şəraitdə görülən işdir. Bu, daimi əlilliyə, sağlamlığın pozulmasına və psixoloji zədələrə səbəb ola bilər.

## TƏCHİZATÇILARDAN GÖZLƏNTİLƏRİMİZ

- Holcim-in öhdəliyi Beynəlxalq Əmək Standartlarının uşaq əməyi haqqındakı prinsiplərinə (o cümlədən "Minimum Yaş haqqında Konvensiya" və "Uşaq Əməyinin Ən Pis Formaları haqqında Konvensiya") uyğundur. Təchizatçıların bu standartlara və ya yerli qanunvericiliyə (hansı daha sərtdirsə) əməl etmələri gözlənilir.

- Təchizatçılar uşaq əməyinin bütün formalarının qarşısını almalıdırlar. Minimum iş yaşı — icbari təhsilin başa çatdığı yaş həddidir, lakin bu hədd heç bir halda 15 yaşdan az ola bilməz. 15-18 yaş arası gənc işçilər fiziki və ya əqli sağlamlığına, təhlükəsizliyinə və ya mənəviyyatına zərər verə biləcək işlərə cəlb edilməməlidirlər.

- Uşaq əməyi qanunvericiliyinin pozulması Sıfır Tolerantlıq Pozuntusu hesab olunur.



# Diskriminasiya, Təzyiq və ya Təhqiramiz Davranış

Holcim-də biz hər bir fərdin özünü hörmətli, dəyərli hiss etdiyi və öz potensialını tam reallaşdırmaq üçün səlahiyyətləndirildiyi bir mədəniyyəti inkişaf etdiririk. Müxtəlif perspektivlərin birləşdirilməsi innovasiyaları təşviq edir və hər birimizin ən yaxşı xüsusiyyətlərini ortaya çıxarır.

Biz ədalətin, şəxsi ləyaqətin, məxfiliyin, birləşmək azadlığının, habelə hər bir fərdin şəxsi hüquq və təhlükəsizliyinin gündəlik iş təcrübəmizin bir hissəsi olduğu mühitə can atırıq.

Biz hər kəsin yüksək performans və uğur üçün bərabər imkanlara malik olduğu iş yerini qiymətləndiririk və təşviq edirik.

## TƏCHİZATÇILARDAN GÖZLƏNTİLƏRİMİZ

- Məşğulluqla bağlı qərarlar müvafiq və obyektiv meyarlara əsaslanmalıdır. Təchizatçılar aşağıdakı əsaslara görə fərq qoymamalıdırlar (lakin bunlarla məhdudlaşmır): yaş; əlillik; cins və cinsi orientasiya; siyasi və ya digər baxışlar; etnik, yerli və ya sosial mənşə; din. Məşğulluqla bağlı qərarlara aşağıdakılar daxildir (lakin bunlarla məhdudlaşmır):
  İşə qəbul, vəzifədə yüksəlmə, işdən çıxarılma və işçilərin yerdəyişməsi, təlim və bacarıqların inkişafı, sağlamlıq və təhlükəsizlik, iş saatları və mükafatlandırma (əməkhaqqı) kimi iş şəraiti ilə bağlı hər hansı siyasət.

- Təchizatçılar fiziki cəza, intizam tədbirləri və hər hansı formada təzyiq (harassment) və ya təhqiramiz davranışlardan istifadə etməməlidirlər. Bura aşağıdakılar daxildir (lakin bunlarla məhdudlaşmır): fiziki, cinsi və ya psixoloji məcburetmə; istismar; təzyiq göstərmə.





# Məlumatların Məxfiliyi

Məxfilik həm yerli, həm də beynəlxalq qanunlarla qorunan təməl insan hüququdur. Rəqəmsal dünyada məlumatların məxfiliyi hər kəsin şəxsi toxunulmazlıq hüquqlarını qorumaq üçün əsas daşa çevrilmişdir.

Bizim məlumatların məxfiliyi proqramımız müvafiq məxfilik qanunlarının əsas tələbləri üzərində qurulub və qanuniliyi, ədalətliliyi və şəffaflığı təmin etmək üçün hazırlanıb. Biz proqramımızı daim yeniləyirik ki, o, inkişaf edən məlumat məxfiliyi və təhlükəsizlik tələblərinə cavab verməyə davam etsin.

## TƏCHİZATÇILARDAN GÖZLƏNTİLƏRİMİZ

- Təchizatçılar fərdi məlumatlardan yalnız Holcim-in təlimatlarına uyğun olaraq düzgün şəkildə istifadə etməli və həmin məlumatları təsadüfi və ya qanunsuz məhv edilməkdən, itirilməkdən, dəyişdirilməkdən, habelə icazəsiz açıqlanmaqdan və ya girişdən qorumalıdırlar.
- Təchizatçılar fərdlər haqqında fərdi məlumatların toplanması, saxlanılması, istifadəsi, işlənməsi və ya paylaşılmasının bütün tətbiq olunan məlumat məxfiliyi qanunlarına uyğun həyata keçirilməsini təmin etməlidirlər.







# Şikayət Mexanizmləri

Holcim, işçi və maraqlı tərəflərin gözləntilərini qarşılamaq və onları üstələmək üçün ən yüksək biznes və etik standartlara sadiq qalmağa çalışır. Davranış və biznes dürüstliyi üzərində şəffaflığı dəstəkləmək üçün Holcim "fikrini bildirmə" (speaking up) mədəniyyətinə sadiqdir.

Holcim-in fəaliyyəti ilə bağlı potensial qanunsuz olan və ya Davranış Məcəlləsini, digər tətbiq olunan siyasət və direktivləri pozan hər hansı məlum və ya şübhəli uyğunsuzluq (misconduct) barədə məlumat verilməlidir.

Holcim müxtəlif hesabat kanalları tətbiq etmişdir. Bura müstəqil xarici provayder tərəfindən idarə olunan Dürüstlük Xətti (Integrity Line) — anonim müraciət aləti də daxildir.
Bu kanal hər kəsə (daxili işçilərə və ya xarici tərəflərə) Holcim-in biznes təcrübələri ilə bağlı narahatlıqlarını təhlükəsiz, anonim və məxfi mühitdə bildirmək imkanı verir. Xidmət həftənin 7 günü, sutkanın 24 saatı fəaliyyət göstərir.

## GÖZLƏNTİLƏRİMİZ

**SpeakUp**

- Holcim öz əməkdaşları və xarici maraqlı tərəflər, o cümlədən təchizatçılar və dəyər zəncirindəki işçilər üçün Holcim-in biznes təcrübələri barədə sual və narahatçılıqlarını bildirə biləcəkləri müstəqil xətt təqdim edir.

**SUAL VƏ NARAHATÇILIQLARINI BİLDİRMƏK ÜÇÜN, SƏSİNİ EŞİTDİR!**

**SPEAK UP**

**HOLCIM.COM/SPEAKUP**

(Holcim Organization Code: 117634)

# Terminlər lüğəti

**Təchizatçılar**

The term Suppliers refers to suppliers of goods and services (which includes Contractors and its Subcontractors performing works for or on behalf of Holcim and its associated companies). More stringent provisions might

**Standards for Suppliers (section 3 of the Code)**

"Təchizatçılar" termini mal və xidmət təchizatçılarını (o cümlədən Holcim və onun törəmə şirkətləri üçün və ya onların adından iş görən podratçıları və subpodratçıları) ifadə edir. Bəzi podratçılar, nəqliyyat şirkətləri, təhlükəsizlik xidməti təminatçıları (özəl və dövlət qüvvələri), hasilat materialları təchizatçıları və dövlət vasitəçiliyi funksiyasını yerinə yetirən təchizatçılar üçün daha sərtdir müddəalar tətbiq oluna bilər. Bu müddəalar bizim idarəetmə sənədlərimizdə (təqdim olunan xidmət və məhsullarla bağlı risk səviyyəsinə uyğun olaraq) əks olunur və müvafiq qaydada təchizatçılara çatdırılır. Bu Məcəllədəki heç bir bənd daha konkret xüsusi müddəaları əvəz etmək məqsədi daşımır.

**ESG / H&S (Ətraf Mühit, Sosial, İdarəetmə / Sağlamlıq və Əməyin Təhlükəsizliyi)**

Bunlar standartların müəyyən edildiyi və təchizatçıların riayət etməsi, habelə performans nümayiş etdirməsi gözlənilən sahələrdir. “İdarəetmə” (Governance) həmçinin rüşvətxorluq, korrupsiya, rəqabət hüququ, məlumatların qorunması və yerli, milli və beynəlxalq qanunvericiliyə riayət edilməsi ilə bağlı aspektləri də əhatə edir.

**Rifah**

İşçilərin rifahı üçün zəruri olan təmiz və yaxşı vəziyyətdə olan obyektlərin təmin edilməsidir. Bura yuyunma yerləri, tualetlər, istirahət və soyunub-geyinmə otaqları, habelə fasilələr zamanı yemək və içmək üçün yerlər daxildir. İçməli su yerli su keyfiyyəti standartlarına, habelə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST/WHO) İçməli Su Keyfiyyəti üzrə Rəhbərliyinə uyğun olaraq təmin edilir; bütün işçilər və podratçılar üçün əlçatan olan təmiz və təhlükəsiz nöqtələrdə saxlanılır.

**BƏT (ILO)**

Beynəlxalq Əmək Təşkilatı beynəlxalq əmək standartlarını müəyyən etmək vasitəsilə sosial və iqtisadi ədaləti təşviq etmək mandatına malik olan Birləşmiş Millətlər Təşkilatının agentliyidir.

**Prioritetləşdirilmiş təchizatçılar**

Holcim təchizatçı bazasında riskə əsaslanan skrininq metodologiyasını tətbiq etməklə tədarük zəncirində potensial ESG / H&S təsirini müəyyən edir. Bu, 3 mərhələli yanaşmaya əsaslanır:
1. Təqdim olunan məhsul/xidmətlərlə bağlı ESG / H&S riskləri.
2. Biznes münasibətləri ilə bağlı risklər (həcm və xərclər).
3. Biznes mühitinin risk göstəricisi kimi istifadə olunan BMT-nin İnsan İnkişafı İndeksi və "Freedom House" İndeksinə əsasən ölkənin risk səviyyəsi.

**Sıfır Tolerantlıq Pozuntuları**

Holcim Davranış Məcəlləsinin tələblərinin dözülməz olan və biznes münasibətlərinin dərhal dayandırılmasına səbəb olan pozuntularıdır. Bunlara bu Məcəllədə açıq şəkildə vurğulanan sahələr, eləcə də çox ağır pozuntular daxildir. Holcim-in təchizatçılara sosial və ekoloji proqramlarını təkmilləşdirməkdə dəstək verməyə çalışdığı digər sahələrdə sıfır tolerantlıq tələb etməyən pozuntular biznes münasibətlərinin dərhal dayandırılmasına səbəb olmur, lakin fəaliyyət planları və davamlı performans qiymətləndirilməsi vasitəsilə aradan qaldırılmalıdır (məsələn: suyun idarə edilməsi sisteminin zəif olması).

**Holcim Ltd**
Grafenauweg 10
6300 Zug
Switzerland
www.holcim.com

© 2026 Holcim Ltd